**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№296/3** **29 dekabr 2017-ci il**

**Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi barədə**

Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.13.1-ci "Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi" bəndinin icrası ilə əlaqədar Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi (M.Abbasov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi" barədə hesabat nəzərə alınsın (əlavə olunur).
2. Palatanın məsul şəxslərinə (N.Talıbov, M.Abbasov, E.İbrahimov, V.Rəhimov) və Palatanın şurası yanında müvafiq komitələrə tapşırılsın ki, auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində işlər beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.7-ci "Auditor qanunvericiliyinə dair normativ-hüquqi aktların layihələrinin hazırlanması və müzakirəsi" bəndinə dair təsdiq olunmuş "plan-proqram"a uyğun olaraq zəruri işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
3. Bu qərarın və hesabatın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**